Qərbi Kaspi Universitetinin təşkilatçılığı ilə ***11 may 2022-ci*** il tarixində **Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş** ***"İqtisadi inkişafda qlobal çağırışlar və perspektivlər"*** mövzusunda Respublika elmi-praktik konfrans keçiriləcək.

***11 may 2022-ci il*** *tarixində keçiriləcək Respublika elmi-praktik konfransa təqdim olunan məqalə və ya tezis materialları RİNC (РИНЦ) bazasında və toplu şəklində dərc ediləcəkdir. İştirakçılara sertifikat verilir.*

Konfrans aşağıdakı bölmələr üzrə aparılacaqdır:

- **Qloballaşma şəraitində Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyası;**
- **Maliyyə bazarları və pul-kredit mexanizminin tənzimlənməsi istiqamətləri;**
- **Xidmət sahələrinin inkişafı və innovasiya menecmenti;**
- **Regionların sosial-iqtisadi inkişaf istiqamətləri**
- **Sənayenin diversifikasiyası.**

Məqalə və tezislərin elektron qəbulu ən gec 10.05.2022-ci il tarixinədək aşağıdakı elektron poçta göndərilməlidir:

**E-mail:** conference.2022@wcu.edu.az

## Konfransın dili və tələb olunan qaydalar:

Konfrans materialları Azərbaycan, Rus və ya İngilis dillərində yazılmalıdır. Mətn "Microsoft Word for Windows" redaktorunda Times New Roman (Az.latın) şriftilə (hərflərin ölçüsü-12, interval-1) yığılmalı, A4 formatlı standartla (210x297 mm) – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 sm olmaq şərti ilə 2-5 səhifədən hazırlanmalıdır.

Mətnin əvvəlində bölmə göstərilir, bir sətir sonra sağdan tədqiqatçının soyadı, adı va atasının adı, onun altında elmi dərəcəsi, müssisəsinin adı, e-poçt ünvanı, telefon nömrəsi və növbəti sətirin mərkəzində isə konfrans materialının adı Boyük həriflərlə yazılmalıdır.

Konfrans materialında istifadə edilmiş elmi ədəbiyyata istinad və mənbələr bu qaydada göstərilməlidir:

Ədəbiyyat siyahısı mətnin sonunda rast gəlmə sırası ilə verilir.

Ədəbiyyət siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələbləri əsasında göstərilir.

Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına üstünlük verilməlidır.

İstinad olunan ədəbiyyatın nömrəsi mətnin içində göstərilir.

Konfrans materialının sonunda onun yazıldığı dildən başqa İngilis dilində xülasə verilir. Xülasədə məqalənin və müəllifin adı göstərilməlidir.

**Məqalələrə görə müəlliflər məsuliyyət daşıyır.**


***Əlaqə üçün:***

E-mail: conference.2022@wcu.edu.az

Telefon: (051) 693-07-03; (070) 690-07-03; (012) 492-74-18

Ünvan: AZ 1001, Bakı, İstiqlaliyyət küç.31